# “Bu yay üzünüzə güləcək!” tirajlı stimullaşdırıcı lotereyanın ŞƏRTLƏRİ

## 1. LOTEREYA VƏ ONUN TƏŞKİLATÇISI BARƏDƏ MƏLUMATLAR

1.1. **Lotereya təşkilatçısının tam adı:** "AccessBank" Qapalı Səhmdar Cəmiyyəti

1.2. **Lotereya təşkilatçısının VÖEN-ni:** 1400057421

1.3. **Lotereya təşkilatçının ünvanı:** Bakı şəhəri, Yasamal rayonu, Məhəllə 1033, Tbilisi prospekti 3

**Lotereya təşkilatçısının əlaqə vasitələri:** (+99412) 490 80 10; (+99412) 490 80 12
Məlumat Mərkəzi - 151
Veb sayt: www.accessbank.az
E-mail: info@accessbank.az

1.4. **Lotereyanın adı:** "Bu yay üzünüzə güləcək" tirajlı stimullaşdırıcı lotereya (bundan sonra "Lotereya")

1.5. **Lotereyanın keçirilmə forması: tirajlı stimullaşdırıcı**

1.6. **Lotereyanın keçirildiyi ərazi: Azərbaycan Respublikasının ərazisi**

1.7. **Satışı lotereya ilə stimullaşdırılan xidmətin adı, onun satışı üçün xüsusi razılığın (lisenziyanın) qeydiyyat nömrəsi, verilmə tarixi, qüvvədə olma müddəti və onu verən orqanın adı:** Bank fəaliyyətini (əmanətlərin cəlb edilməsi) həyata keçirmək üçün Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən verilmiş 15 sentyabr 2008-ci il tarixli, 245 saylı müddətsiz xüsusi razılıq (lisenziya).

## 2. LOTEREYANIN KEÇİRİLMƏ MÜDDƏTİ, LOTEREYADA İŞTİRAK HÜQUQUNUN ƏLDƏ EDİLMƏSİ QAYDASI.

2.1. 2017-ci ilin 22 iyun – 20 avqust (daxil olmaqla) tarixləri ərzində AccessBank tərəfindən buraxılmış MasterCard ödəniş kartlarından biri ilə Azərbaycan Respublikası ərazisində və ölkədən kənarda yerləşən istənilən ticarət-xidmət müəssisəsində, həmçinin, İnternet üzərindən məhsullar və ya xidmətlər üzrə lotereya keçirilən müddət ərzində nağdsız əməliyyat aparan, rezident və qeyri-rezident fiziki şəxslər bu lotereyada iştirak edə bilər.

2.2. Lotereyada bu əməliyyatlar iştirak etmir:

- kommunal xidmətlərin internet və ya avtomatlar vasitəsilə ödənilməsi;
- mobil/stasionar telefon balansının internet və ya avtomatlar vasitəsilə artırılması;
- internetin və kabel TV-nin internet və ya avtomatlar vasitəsilə ödənilməsi;
- sığorta xidmətlərinin internet və ya avtomatlar vasitəsilə ödənilməsi;
- bank xidmətlərinin internet və ya avtomatlar vasitəsilə ödənilməsi;
- bankomatlarda və NPM (nağd pul verilmə məntəqələri) və (və ya) digər kredit-maliyyə müəssisələrində nağd pul vəsaitlərinin çəkilməsi və ya daxil edilməsi əməliyyatları;
- pul vəsaitlərinin bank hesabından fiziki və/və ya hüquqi şəxslərin hesablarına köçürülməsi;
- vergi ödənişləri və digər dövlət xidmətlərinin ödənilməsi üzrə əməliyyatlar;
- ləğv edilmiş/qaytarılmış alış-veriş üzrə əməliyyatlar;
- Mərc oyunları və elektron cüzdan üzrə aparılan əməliyyatlar;
- Tirajlı stimullaşdırıcı lotereya biletlərinin alınması, kazino və totalizator üzrə hesablar, yol qəbzlərinin, obliqasiyaların və qiymətli metalların, həmçinin, İnternet üzərindən alınması;
- pul vəsaitinin bank hesabından karta köçürülməsi;
- pul vəsaitinin kartdan karta köçürülməsi.

2.3. Lotereya keçirilən müddətdə edilən nağdsız əməliyyatların məbləğinin cəmi 20 AZN (əməliyyatlar USD/EUR/GBP valyutalarından birində olduqda isə onun AZN ekvivalenti) olduqda müştəri bir uduş şansı qazanır. Şansların sayı hər tirajın sonunda edilən əməliyyatların məbləğinin cəminin 20-ə bölməklə hesablanacaq. Şansların sayı məhdudlaşdırılmır.

2.4. 2017-ci ilin 22 iyun – 20 iyul (daxil olmaqla) tarixləri ərzində həyata keçirilən əməliyyatlar üzrə əldə edilmiş şanslar 31.07.2017-ci il tarixli tirajda, 2017-ci ilin 21 iyul – 20 avqust (daxil olmaqla) tarixləri ərzində həyata keçirilən əməliyyatlar üzrə əldə edilmiş şanslar isə 30.08.2017-ci il tarixli tirajda iştirak edəcək.

2.5. USD/EUR/GBP valyutada aparılan əməliyyatların AZN ekvivalenti əməliyyatın məbləğinin hesabdan silindiyi tarixə Mərkəzi Bankın məzənnəsi ilə hesablanacaq.

2.6. Lotereyada yalnız AccessBank tərəfindən buraxılmış MasterCard ödəniş kartlarından biri ilə nağdsız olaraq əldə edilən əmtəə və ya xidmətin dəyəri nəzərə alınacaq. Əmtəə və xidmətin ödənilməsi üçün ödənilən vergilər və xidmət haqqları nəzərə alınmayacaq.

## 3. LOTEREYADA İŞTİRAK HÜQUQUNUN TƏSBİT OLUNMASI FORMASI.

3.1. İştirakçının eyniləşdirilməsi 10 rəqəmli "Müştəri kodu" əsasında aparılır.

3.2. Müştəri kodu fərdidir, təkrarlanmır və plastik kart hesabı açılan zaman müştəriyə təqdim edilir

3.3. Müştəri, müştəri kodunu itirdikdə və ya unutduqda "AccessBank" QSC-nin filiallarına şəxsiyyət vəsiqəsini təqdim etməklə həmin Müştəri kodunu yenidən əldə edə bilər.

## 4. LOTEREYANIN UDUŞ FONDU

4.1 Lotereyanın uduş fondu aşağıdakı cədvələ müvafiq olaraq tirajın uduş fondu oynanılmamışdan öncə formalaşdırılır. Kampaniyanın uduş fondu aşağıdakılardan ibarətdir:

| № | Uduş fonduna daxil olan uduşun adı | Uduşların sayı və parametrləri |
|---|---|---|
| 1 | Türkiyənin Antalya şəhərinə səyahət vauçeri | 2 ədəd 2 nəfərlik səyahət vauçeri (aviabiletlər, transfer, Ultra All İnclusive konseptdə fəaliyyət göstərən "Titanik Deluxe Belek" otelində 6 gecə , sığorta daxildir) |
| 2 | Smartfon | 4 ədəd Apple İphone 7 32GB |
| 3 | Planşet | 8 ədəd Samsung Galaxy Tab E |

## 5. LOTEREYANIN UDUŞ FONDUNUN (TİRAJIN) OYNANILMASI QAYDASI.

5.1. Lotereyada müştəri kodlarının nömrələri qeyd olunmuş vərəqələrdən istifadə olunacaq. Müştərinin kodlarının yazıldığı vərəqələrin sayı onun müvafiq dövr ərzində həyata keçirdiyi nağdsız əməliyyatların məbləğinin cəminin 20-ə bölünməsiylə müəyyən olacaq.

5.2. Lotereya 2 (iki) tirajdan ibarətdir və onun uduş fondunun oynanılması 31.07.2017, 30.08.2017, Tbilisi prospekti 3 ünvanında aşağıdakı qaydada keçiriləcəkdir:

5.2.1. Hər tirajda müştəri kodlarının nömrələri qeyd olunmuş vərəqələr bükülü vəziyyətdə xüsusi lototrona yerləşdirilir, qarışdırılır və uduşun adı elan olunur. Müştəri kodunun nömrəsi qeyd olunmuş 1 (bir) ədəd vərəqə çıxarılır və onun üzərində qeyd olunmuş müştəri kodunun nömrəsi qalib kimi elan olunur. Bu, ardıcıl olaraq 7 (yeddi) dəfə təkrar olunur və müştəri kodunun nömrəsi qeyd olunmuş ümumilikdə 7 (yeddi) ədəd vərəqə əl ilə 7 (yeddi) gedişdə çıxarılacaq.

5.2.2. Birinci (31.07.2017) tirajda 22.06.2017-ci il tarixindən 20.07.2017-ci il (daxil olmaqla) tarixinədək AccessBank tərəfindən buraxılmış MasterCard bank ödəniş kartlarından biri ilə Azərbaycan Respublikası ərazisində və ölkədən kənarda yerləşən istənilən ticarət-xidmət müəssisəsində, həmçinin, İnternet üzərindən məhsullar və ya xidmətlər üzrə nağdsız əməliyyat aparmış müştərilərin kodları istifadə ediləcək. Bu tirajın uduş fondu gedişlər üzrə aşağıdakı hədiyyələrdən ibarətdir:

| GEDİŞLƏR | UDUŞUN ADI | PARAMETR | UDUŞUN SAYI |
|---|---|---|---|
| 1-ci gediş | Samsung planşet | Samsung Galaxy Tab E (9.6", 8GB, Black) | 1 ədəd |
| 2-ci gediş | Samsung planşet | Samsung Galaxy Tab E (9.6", 8GB, Black) | 1 ədəd |
| 3-cü gediş | Samsung planşet | Samsung Galaxy Tab E (9.6", 8GB, Black) | 1 ədəd |
| 4-cü gediş | Samsung planşet | Samsung Galaxy Tab E (9.6", 8GB, Black) | 1 ədəd |
| 5-ci gediş | Apple Smartfon | Apple iPhone 7 Black, 32GB 2 GB RAM Ölçüsü 138.3 x 67.1 x 7.1 mm | 1 ədəd |
| 6-cı gediş | Apple Smartfon | Apple iPhone 7 Black, 32GB 2 GB RAM Ölçüsü 138.3 x 67.1 x 7.1 mm | 1 ədəd |
| 7-ci gediş | Antalya şəhərinə səyahət vauçeri | 10-16 avqust 2017-ci il tarixlər üçün 2 nəfərlik səyahət vauçeri (aviabiletlər, transfer, Ultra All İnclusive konseptdə fəaliyyət göstərən "Titanik Deluxe Belek" otelində 6 gecə , sığorta daxildir) | 1 ədəd |

5.2.3. İkinci (30.08.2017) tirajda 21.07.2017-ci il tarixindən 20.08.2017-ci il (daxil olmaqla) tarixinədək AccessBank tərəfindən buraxılmış MasterCard bank ödəniş kartlarından biri ilə Azərbaycan Respublikası ərazisində və ölkədən kənarda yerləşən istənilən ticarət-xidmət müəssisəsində, həmçinin, İnternet üzərindən məhsullar və ya xidmətlər üzrə nağdsız əməliyyat aparmış müştərilərin kodları istifadə ediləcək. Bu tirajın uduş fondu gedişlər üzrə aşağıdakı mallardan ibarətdir:

| GEDİŞLƏR | UDUŞUN ADI | PARAMETR | UDUŞUN SAYI |
|---|---|---|---|
| 1-ci gediş | Samsung planşet | Samsung Galaxy Tab E (9.6", 8GB, Black) | 1 ədəd |
| 2-ci gediş | Samsung planşet | Samsung Galaxy Tab E (9.6", 8GB, Black) | 1 ədəd |
| 3-cü gediş | Samsung planşet | Samsung Galaxy Tab E (9.6", 8GB, Black) | 1 ədəd |
| 4-cü gediş | Samsung planşet | Samsung Galaxy Tab E (9.6", 8GB, Black) | 1 ədəd |
| 5-ci gediş | Apple Smartfon | Apple iPhone 7 Black, 32GB 2 GB RAM Ölçüsü 138.3 x 67.1 x 7.1 mm | 1 ədəd |
| 6-cı gediş | Apple Smartfon | Apple iPhone 7 Black, 32GB 2 GB RAM Ölçüsü 138.3 x 67.1 x 7.1 mm | 1 ədəd |
| 7-ci gediş | Antalya şəhərinə səyahət vauçeri | 10-16 sentyabr 2017-ci il tarixləri üçün 2 nəfərlik səyahət vauçeri 2 nəfərlik səyahət vauçeri (aviabiletlər, transfer, Ultra All İnclusive konseptdə fəaliyyət göstərən "Titanik Deluxe Belek" otelində 6 gecə , sığorta daxildir) | 1 ədəd |

5.3. Hər tirajda 1 müştəri max. 3 hədiyyə qazana bilər. Ardıcıl olaraq 4-cü dəfə çıxan müştəri kodu qalib kimi hesab edilməyəcək və gediş təkrarlanacaq.

5.4. Tirajın uduş fondunun oynanılmasına nəzarəti lotereyalar haqqında müvafiq qanunvericiliyə uyğun olaraq lotereya təşkilatçısı tərəfindən yaradılan tiraj komissiyası həyata keçirəcəkdir.

## 6. UDUŞLARIN VERİLMƏSİ (ÖDƏNİLMƏSİ) QAYDASI VƏ MÜDDƏTİ.

6.1. Uduşların verilməsi üçün müraciətlərin qəbulu birinci (31.07.2017) tiraj üçün 01.08.2017 -ci il tarixdən, ikinci (30.08.2017) tiraj üçün 31.08.2017-ci il tarixindən başlayır və müvafiq tarixlərdən sonra Türkiyənin Antalya şəhərinə 2 ədəd 2 nəfərlik səyahət vauçeri üçün 5(beş) iş günü, digər uduşlar üçün isə 90 (doxsan) iş günü ərzində davam edir.

6.2. Uduşların verilməsi (ödənilməsi) üçün müraciətlər Bakı şəhəri, Yasamal rayonu, Məhəllə 1033, Tbilisi prospekti 3 ünvanında qəbul ediləcəkdir. Uduşlar uduşlu müştəri kodunun sahibinin şəxsiyyətini təsdiq edən sənəd təqdim edildikdən sonra verilir.

6.3. Uduşlar bu Şərtlərin 6.1-ci bəndi ilə nəzərdə tutulmuş qaydada müraciət edildikdən sonra Türkiyənin Antalya şəhərinə 2 ədəd 2 nəfərlik səyahət vauçeri dərhal, digər uduşlar isə 30 (otuz) iş günündən gec olmayaraq sahibinə veriləcəkdir.

## 7. LOTEREYA BARƏDƏ MƏLUMATLANDIRMA

7.1. Lotereyanın şərtləri, həmçinin tirajların uduş fondunun oynanılmasının nəticələri və lotereya ilə bağlı məlumatlar AccessBank-ın www.accessbank.az rəsmi internet səhifəsində yerləşdiriləcək.

## 8. YEKUN MÜDDƏALAR

8.1. Bu Şərtlərdə öz əksini tapmamış digər məsələlər lotereyalar haqqında mövcud qanunvericiliyə uyğun olaraq tənzimlənir.